## Böyük Vətən Müharibəsində qazanılan qələbədə azərbaycanlıların rolu

## Faşizm üzərində qələbə günü: Böyük Vətən Müharibəsində azərbaycanlı qəhrəmanların rolu

XX dünyada baş qaldıran millətçi meyllər nəticə etibari ilə labüd qlobal müharibə ssenariləri ilə nəticələnmişdir. 1939-cu il sentyabrın 1-də Almaniya Polşaya hücum etdi. SSRİ özü də Avropanın bölüşdürülməsi planlarını reallaşdırmaq məqsədi ilə 1939-cu ilin avqustun 23-də Almaniya ilə 10 il müddətinə bir-birinə hücum etməmək haqqında “Molotov-Ribbentrop” paktı imzalamışdır. Hitler və Stalin pakta əlavə olunan məxfi protokolla Avropanı “Kerzon Xətti” boyunca şərti olaraq aralarında bölürdülər.

1939-1941 illərdə Avropada davam edən müharibə dövründə, SSRİ də Baltikyanı bölgələri zəbt edib, Finlandiyanın işğalı üçün “Qış müharibəsi”nə girişmişdi. Hitler Avropadakı hədəflərinə çatdıqdan sonra isə şərqə tərəf istiqamətlənmiş oldu. Stalin Hitlerin “Molotov- Ribbentrop” paktına sadıq qaldığını güman edirdi. O, hətta sovet kəşfiyyatçısı Rixard Zorgenin Yaponiyadan ünvanladığı “Almaniyanın müharibə hazırlığı” ilə bağlı təcili xəbərini belə ciddiyə almadı. “Barbarossa” adlı plana əsasən, 1941-ci il iyunun 22-də nasist Almaniyası SSRİ-yə hücum etdi.

Azərbaycanın sərvətləri, strateji və geosiyasi mövqeyi Almaniyanın diqqətini cəlb edirdi. Hitlerin Qafqaza hücum planı “Edelveys” adlanırdı. Bu plana görə də Bakı 1941-ci il sentyabrın 25-də tutulmalı idi.

Azərbaycanda 1941-ci ildə 402 və 223-cü, 1942-ci ildə isə 416 və 271-ci milli atıcı diviziyalar yaradıldı. Ümumiyyətlə müharibə illərində Azərbaycandan sovet ordusuna 600 minə yaxın adam səfərbərliyə alınmışdı.

Kiçik leytenant İsrafil Məmmədov 1941-ci ilin dekabrında Novqorod yaxınlığında Pustınka kəndi uğrunda gedən döyüşlərdə iştirak edib. O, azərbaycanlılar arasında ilk dəfə olaraq Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldü.

Moskva ətrafındakı döyüşlərdə fərqləndiyinə görə tank bölməsinin komandiri Həzi Aslanov “Qırmızı ulduz” medalı ilə təltif edildi. General-mayorun tank briqadası 508 yaşayış məntəqəsini azad etdi. H.Aslanov iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş yeganə azərbaycanlıdır. İkincisi haqda fərman onun ölümündən sonra – 1991-ci ildə həyata keçirildi. O, 1945-ci il yanvarın 24-də döyüş əməliyyatları getməyən bir yerdə, müəmmalı şəkildə güllə yarasından həlak oldu.

Borodino çölündəki vuruşmada pulemyotçu İdris Vəliyev düşmənin 50-dən çox əsgərini məhv etmişdi. Təyyarəçi Hüseynbala Əliyev Lelinqrad səmasını müdafiə edərkən düşmənin 6 təyyarəsini vurub salmış, 17 yara almasına baxmayaraq, öz təyyarəsini yerə endirə bilmiş, lakin özü həlak olmuşdu.

271-ci diviziya Polşa və Çexoslovakiyanın azad edilməsində iştirak etmişdi. Bu döyüşlərə görə Ziya Bünyadov da daxil olmaqla, 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Reyxstaqın alınmasında göstərdiyi rəşadətə görə Yusif Sadıqov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

1943-cü ildə 50 nəfər azərbaycanlı Məmməd Əliyevin başçılığı ilə faşist düşərgələrindən qaçaraq Krımda xüsusi partizan dəstəsi yaratmışdılar. Ukraynada isə 400 nəfər azərbaycanlı partizan dəstəsi təşkil etmiş, başqa partizan dəstələri ilə birləşərək Ukrayna, Çexoslovakiya və Macarıstanda faşizmə qarşı mübarizə aparmışdılar.

Mehdi Hüseynzadə “Mixaylo” ləqəbi ilə Yuqoslaviyada partizan dəstəsinin kəşfiyyatçı-təxribat qrupuna rəhbərlik etmişdi. 700 nəfərlik qrup hərbçini faşist əsirliyini azad etmiş, min nəfərdən çox alman zabitini məhv etmişdi. Faşistlər onun başına 400 min lirə mükafat təyin etmişdilər. O, 1944-cü ildə faşistlərlə qeyri-bərabər döyüşdə ələ keçməmək üçün son gülləsini özünə vurmuşdu. 1957-ci ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

1945 il mayın 9 Böyük Vətən müharibəsinin bitişi, qələbə tarixi hesab olunur. 1945 ildən bəri 77 ildir ki ölkəmizdə bu gün qələbə günü kimi qeyd edilir.

Məqaləni tam oxumaq istəyənlər link vasitəsilə keçid edərək oxuya bilərlər.

Əgər siz də məqalənizi saytımızda dərc etməyimizi istəyirsinizsə, bizim sosial şəbəkələrdəki hesablarımıza müraciət edə bilərsiniz.

Məqalələri saytımızda dərc etməyimizi istəyənlər sosial şəbəkələrdəki hesablarımıza müraciət edə bilərlər.